

*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
Heydər Əliyev

*Heydər Əliyev – xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 03-04 (1526) 10-21 fevral 2023-cü il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı



## Prezident İlham Əliyev Münxendə televiziya kanallarına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşdən sonra televiziya kanallarına müsahibə verib.

Müsahibə təqdim edilir.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Jurnalistlər:** Salam, cənab Prezident.

**Jurnalist:** Yəqin ki, görüş keçirildi, necə keçdi?

**Prezident İlham Əliyev:** Yaxşı keçdi, məncə, konstruktiv keçdi. Bir çox məsələlər müzakirə olundu, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması, sazişin imzalanması üçün lazım olan şərtlərin mövcudluğu. Əlbəttə ki, mən öz mövqeyimi bir daha bildirdim. Əsas məsələ ondan ibarətdir ki, bu sülh müqaviləsi beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməlidir. Qarabağ haqqında hər hansısa müddəanın olması qəbuledilməzdir. Bu haqda da Azərbaycanın mövqeyi bildirildi. Biz üç gün bundan qabaq Ermənistandan bizim təkliflərimizə yeni cavab təklifləri aldıq. İndi onları incələyirik. İlk baxışda Ermənistanın mövqeyində tərəqqi var, ancaq kifayət qədər deyil. Yəni, əsas bu məsələ müzakirə olundu. Laçın-Xankəndi yolundakı vəziyyət də, əlbəttə ki, müzakirə edildi. Mən bir daha Azərbaycanın mövqeyini bildirdim ki, hər hansı bir blokadadan söhbət gedə bilməz. Dekabrın 12-dən bu günə qədər 2500-dən çox yük maşını və Qırmızı Xaç Komitəsinin maşınları keçmişdir və əgər blokada var idisə, bu maşınlar necə keçə bilərdi? Yəni, bu, Azərbaycana qarşı əsassız bir ittihamdır, biz bunu rədd edirik və deyə bilərəm ki, keçirdiyim bütün görüşlərdə bu mövqe anlayışla qarşılanır. O cümlədən Avropa İttifaqı bizim mövqeyimizi anlayır. Biz haqlı olaraq tələb edirik ki, yataqlarımızın qanunsuz istismarı dayandırılsın və buna nail olunmayana qədər əminəm ki, bizim ictimai fəallarımız öz şərəfli missiyasından əl çəkməyəcəklər. Bu gün də bunu çatdırmağa çalışdım. Eyni zamanda bildirdim ki, yaxşı olar, Ermənistan və Azərbaycan ikitərəfli qaydada nəzarət-buraxılış məntəqələrini Ermənistan-Azərbaycan sərhədində yaratsınlar. Biz bu təklifi vermişdik, bu gün rəsmən vermişik. Daha əvvəl bu təklif qeyri-rəsmi kanallar vasitəsilə çatdırılmışdır. Ermənistan tərəfindən hər hansı mövqe səsləndirilmədi. Yəqin ki, onlara bir qədər vaxt lazımdır bunu müzakirə etmək üçün.

Amma ilkin təəssüratımız belədir ki, həm Avropada, həm Amerikada bizim bu təklifimiz məntiqli hesab olunur. Bu, hər iki ölkə arasındakı əlaqələrin normallaşmasında da, əlbəttə ki, önəmli amildir. Çünki biz sərhədlərin delimitasiyası haqqında danışırıqsa, nəzarət-buraxılış məntəqələri olmadan bu, mümkün deyil. Biz kommunikasiyaların açılması haqqında danışırıqsa, əlbəttə ki, həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda, Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələri yaradılmalıdır. Bu gün Dövlət katibi Blinkenin iştirakı ilə keçirilən görüşdə mən bunu rəsmən təklif kimi irəli sürdüm. Ermənistan tərəfindən cavab gözləyəcəyik.

**Jurnalist:** Cənab Prezident, Bakı vaxtı ilə 19:30-da panel müzakirəsinin keçiriləcəyi gözlənilir. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də məhz bu panel müzakirəsində iştirak edəcək. Tbilisi formatı gündəmə gələ bilərmi?

**Prezident İlham Əliyev:** Ola bilər. Çünki bu, təbii olar. Biz də bunu alqışlayırıq. Mənim Gürcüstana etdiyim səfər zamanı bu məsələ müzakirə olundu. Ermənistan tərəfi buna bir qədər tərəddüdlə yanaşır. Ancaq hesab edirəm ki, bu, ədalətli olardı. İlkin variantda Ermənistan baş nazirinin iştirakı nəzərdə tutulmurdu. Çünki mənə verilən ilkin təklifdə onun adı yox idi. Yəqin dünən axşam belə qərara gəldi ki, o da iştirak etsin. Hesab edirəm ki, bu, yaxşı haldır. Çünki, nəhayət Cənubi Qafqazda üç ölkə arasında hər hansı bir əməkdaşlıq başlana bilər.

## Prezident İlham Əliyevin Münxendə Avropa İttifaqı Şurasının Prezidenti ilə görüşü olub



Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar və Brüssel sülh prosesi ətrafında müzakirələr aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini qeyd etdi.

Şarl Mişel Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərini bundan sonra da davam etdirəcəyini bildirdi.

Söhbət zamanı, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Münxendə İsrailin müdafiə naziri ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də Münxendə İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü olub.

Prezident İlham Əliyev Yoav Qallantı İsrailin müdafiə naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onunla Azərbaycanın müdafiə naziri arasında təmasların və telefon danışıqlarının olduğunu məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla İsrail arasında münasibətlərin dostluq və tərəfdaşlıq xarakteri daşıdığını, müxtəlif sahələrdə, o cümlədən müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin tezliklə fəaliyyətə başlamasının əlaqələrimizin inkişafına daha böyük töhfə verəcəyinə əminliyini ifadə etdi.

Yoav Qallant İsrail Dövlətinin rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını İsrail Dövlətinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

Nazir Yoav Qallant Azərbaycanla İsrail arasındakı əlaqələrin inkişafından məmnunluğunu bildirdi, vaxtilə Azərbaycana səfər etməsini xatırladı, Quba şəhərində yəhudi icmasının yaşaması üçün yaradılmış şəraitin onda böyük təəssürat yaratdığını dedi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Münxendə Avropa İnvestisiya Bankının prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə Avropa İnvestisiya Bankının (EIB) prezidenti Verner Hoyer ilə görüşüb.

Dövlətimizin başçısı Avropa İnvestisiya Bankı ilə Azərbaycan arasında əməkdaşlıqdan məmnunluğunu ifadə etdi, ölkəmizin Avropa İttifaqı ilə çox sıx əlaqələrinin olduğunu bildirdi.

Azərbaycan Prezidenti Cənub Qaz Dəhlizi layihəsinin icrası prosesində Avropa İnvestisiya Bankının maliyyə tərəfdaşı kimi yaxından iştirakına görə təşəkkürünü ifadə etdi.

Azərbaycanın inkişaf gündəliyində duran rəqəmsal transformasiya, bərpaolunan enerji resurslarının inkişafı və ixracı, nəqliyyat bağlantılarının genişləndirilməsi konsepsiyası haqqında məlumat verən dövlətimizin başçısı Avropa İnvestisiya Bankının hər üç sahə üzrə ölkəmizin yaxın tərəfdaşı ola biləcəyini dedi.

Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfərini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşlərini məmnunluqla xatırladı.

Dövlətimizin başçısı hazırda Azərbaycanın Avropa İttifaqının enerji təminatında oynadığı rolu, Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını qeyd etdi.

Azərbaycanın Avropanın enerji bazarına qaz ixracını artırdığını diqqətə çatdıran Prezident İlham Əliyev, həmçinin ölkəmizin Xəzər dənizinin Azərbaycan sektorunda və quruda böyük bərpaolunan enerji potensialına malik olduğunu vurğuladı. Dövlətimizin başçısı bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini diqqətə çatdırdı, hazırda beynəlxalq tərəfdaş şirkətlərlə 25 qiqavatadək bərpaolunan enerji istehsalı ilə bağlı müxtəlif sənədlərin imzalandığını, bu istiqamətdə işlərin aparıldığını vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Orta Dəhliz üzərində yerləşən ölkə olaraq nəqliyyat-logistika potensialının daha da artırılması və azad ticarət zonasının yaradılması planları haqqında məlumat verərək, bu sahədə də əməkdaşlıq imkanlarının böyük olduğunu diqqətə çatdırdı, eyni zamanda, ölkəmizdə cəlbedici investisiya mühitinin yaradıldığını bildirdi.

Avropa İnvestisiya Bankının prezidenti Verner Hoyer Prezident İlham Əliyev tərəfindən qeyd olunan strateji xəttin rəhbərlik etdiyi maliyyə qurumunun maliyyələşdirmə strategiyası, həmçinin Avropa İttifaqının da qəbul etdiyi “EU Global Gateway” strategiyasında nəzərdə tutulmuş hədəflər ilə tam uyğunluq təşkil etdiyini bildirdi və bu sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. O, Avropa İnvestisiya Bankının xüsusilə “Yaşıl enerji” konsepsiyasını yaxından dəstəklədiyini diqqətə çatdırdı.

Verner Hoyer Prezident İlham Əliyevin ölkənin maliyyə resurslarından müdrikliklə istifadə edərək Azərbaycanın uzunmüddətli inkişafına xidmət göstərən layihələrin icra olunduğunu vurğuladı. O, həmçinin Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rola görə təşəkkürünü ifadə etdi.

Görüşdə nümayəndə heyətləri səviyyəsində təmasların davam etdirilməsi və qarşılıqlı maraq doğuran birgə layihələrin müəyyənləşdirilməsi ilə bağlı razılıq əldə olundu.

# Böyük Kəsik kənd yaşayış məntəqəsində səyyar qəbul keçirildi





***Müvafiq qrafikə uyğun olaraq Böyük Kəsik kənd tam orta məktəbin akt zalında keçirilən səyyar qəbulda RİH başçısı aparatının məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, aidiyyəti təşkilatların nümayəndələri və kənd sakinləri iştirak ediblər.***

Qəbulda giriş nitqi söyləyən Seymur Orucov qeyd edib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin Prezident İlham Əliyev tərəfindən daxildə və xaricdə uğurla reallaşdırılmasının nəticəsidir ki, beynəlxalq arenada nüfuz sahibi olan Azərbaycan regionda lider dövlətə çevrilmişdir. O cümlədən 44 günlük Vətən müharibəsində tarixi Qələbəmizdən və işğaldan azad olunan ərazilərə uğurla davam edən Böyük Qayıdışdan, eləcə də orada həyata keçirilən nəhəng abadlıq-quruculuq işlərindən geniş bəhs olunub.



Səyyar qəbulda vətəndaşların təklif və müraciətləri qəbul olunub, səsləndirdikləri məsələlər məsul şəxslərin iştirakı ilə yerindəcə araşdırılaraq həlli ilə bağlı müvafiq tədbirlər müəyyənləşdirilib.

# Şəhid Elnur Həsənovun ailəsinə ziyarət olundu



Ağstafa rayon Hüseyn Arif Ev Muzeyi və Ağstafa Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları rəşadətli ordumuzun hər bir üzvü kimi məkrli düşmənə qarşı mərdliklə döyüşən, qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalan Elnur Həsənovun ailəsini ziyarət ediblər.

Elnur Həsənov 1992-ci il sentyabrın 15-də Ağstafa şəhərində anadan olub. O, Vətən müharibəsində Füzuli, Laçın və Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Noyabrın 8-də Şuşa şəhərinin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə şəhadətə ucalıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Görüşdə şəhid Elnur Həsənovun keçdiyi döyüş yolu xatırlanıb, Ali Baş Komandanın rəhbərliyi ilə qalib Ordumuz tərəfindən yazılmış şanlı Zəfər tarixinə nəzər salınıb. Şəhid olan qəhrəmanlarımızın xatirəsi ehtiramla anılıb.

# Təkliflər və problemlər nəzərə alındı



Dağkəsəmən kəndi ərazisinə və əhalisinin sayına görə rayonun ən böyük yaşayış məntəqələrindən biridir. Səkkiz mindən çox əhalisi olan bu kənddə son illər sosial-iqtisadi problemlərin həlli istiqamətində bir sıra işlər görülmüşdür.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov bu günlər ictimaiyyətlə növbəti səyyar görüşünü bu kənddə keçirmişdir. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri iştirak etmişlər. S. Orucov görüşdə ilk öncə son günlər bütün Azərbaycan xalqı üçün faciəli hadisə olan qardaş Türkiyədə baş verən zəlzələdən danışmış, bu faciəni əsrin fəlakəti olduğunu qeyd etmiş, zəlzələnin ağır nəticələri barədə görüş iştirakçılarına məlumat vermişdir. S. Orucov qeyd etmişdir ki, 13.5 milyon əhalisi olan bu ərazidə zəlzələ nəticəsində saysız-hesabsız ölüm hallarının olduğunu bildirmişdir. Bu faciə Azərbaycan xalqını dəhşətə gətirmiş və bu zəlzələ hamının ürək ağrısına səbəb olmuşdur. Belə bir ağır gündə xalqımız həmişə olduğu kimi, yenə də türk qardaşlarının yanlarında olduqlarını nümayiş etdirmiş, zəlzələ qurbanlarına Allahdan rəhmət diləmiş, əllərindən gələn yardımları etmişlər. Zəlzələ bölgəsinə imkansız, imkanlı adamlar tərəfindən göndərilən sosial yardımlar bu gün də davam etməkdədir.

S. Orucov öz çıxışında son illər rayonda aparılan quruculuq işləri barədə də görüş iştirakçılarına məlumat vermiş və qeyd etmişdir ki, 2020-ci il ölkəmiz və rayonumuz üçün ən uğurlu illərdən biri olmuşdur. Bu gün Mingəçevir şəhərində inşa olunan yeni elektrik stansiyası onu göstərir ki, ölkəmizdə əhalinin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur. Bu elektrik stansiyasının tikintisi ölkəmizdə bir milyard kub təbii qaz yanacağının qənaət edilməsinə imkan verəcəkdir.



İcra başçısı rayonumuzda və eləcə də Dağkəsəmən kəndində aparılan işlərdən danışaraq qeyd etdi ki, keçən il rayonumuzda yollara 60 min kvadratmetrdən çox asfalt örtük salınmışdır. Dağkəsəmən kəndində elektrik sistemi tamamilə yenidən qurulmuş, kəndin ərazisinə internet xətləri çəkilmişdir. S. Orucov onu da qeyd etdi ki, bütün bunlara baxmayaraq söz yox ki, Dağkəsəmən kəndində bəzi problemlər mövcuddur. Yaxşı olar ki, bu barədə kənd sakinləri öz ürək sözlərini desinlər.

Görüşdə çıxış edən kənd sakini Tavad Aslanov ilk öncə Türkiyədə baş verən təbii fəlakət nəticəsində dünyasını dəyişən qardaşlarımızın hamısına Allahdan rəhmət dilədi, onlara göndərilən yardımların təşkilinə görə möhtərəm prezidentimiz İlham Əliyev cənablarına dərin minnətdarlığını bildirdi. T. Aslanov kənddə mövcud olan bəzi problemlərə də toxundu və qeyd etdi ki, kəndin su ilə təchizatında mövcud olan bəzi problemlər tam həll olunmamış qalmaqdadır.

Kənd sakinləri Lalə Mehdiyeva, Afət Qocayeva kəndin bəzi yerlərində internetdən istifadə olunmasında bəzi problemlərin olduğunu qeyd etdilər, içməli su probleminin bu günə kimi tam həll olunmadığını göstərdilər.

Kənd sakinləri Ülvi Namazlı, Elbrus Mustafayev və başqaları Poylu çayı üzərində inşa olunan körpünün bəzi vətəndaşlar tərəfindən dağıdıldığını qeyd etdilər və kanalizasiya probleminin bu günə kimi həll olunmadığını göstərdilər. Onlar bu problemlərin həll olunmasında kənd sakinlərinə köməklik göstərilməsini xahiş etdilər.

Görüşün sonunda Rayon İcra Hakimiyyətinin Başçısı Seymur Orucov qaldırılan problemlərə, irəli sürülən təkliflərə öz münasibətini bildirdi və həmin problemlərin, çatışmazlıqların qısa müddətdə həll olunması üçün əlaqədar idarə, müəssisə rəhbərlərinə tapşırıqlar verdi.

***İbrahim Əliyev***

# Qardaş Türkiyəyə daha 22 ədəd modul tipli ev göndərildi

***Ağstafa, Cəlilabad, İmişli, Abşeron, Goranboy, Tərtər, Zaqatala, Şirvan və digər rayonların icra hakimiyyətlərinin yardımları Türkiyəyə yola salınıb. Yardıma 22 ədəd modul tipli ev daxildir. Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı bildirib ki, Azərbaycandan göndərilən modul tipli evlər Kahramanmaraşda toplanacaq.***




Rayon İcra Hakimiyyəti Başçısının Birinci müavini Müşfiq Hüseynov mətbuata açıqlama verərək bildirdi ki, modul tipli evlərin hər birində 10 nəfər yaşaya bilər. Hər ev 3 metr enində, 7 metr uzunluğundadır. Qeyd edək ki, indiyə kimi Türkiyəyə rayon və şəhərlərimizdən 26 modul tipli ev göndərilib. Həftənin sonunadək də yerli icra hakimiyyəti orqanları tərəfindən əlavə 43 ədəd müasir modul tipli evin təbii fəlakət bölgələrinə göndərilməsi nəzərdə tutulur.




# Şəhidin arzuladığı toy baş tutdu



"Turanla bir yerdə xidmət keçmişik. Ən yaxın sirdaşım olub. Müharibə başlayanda da döyüşlərə bərabər getdik. O insanın üzündən heç zaman təbəssüm əskik olmurdu. Qələbədən sonra toyu olacaqdı. Müharibə başlamamışdan qabaq toyunun vaxtını da planlaşdırmışdı. Hər ikimizin məzuniyyəti var idi. Məni buraxmadı ki, məzuniyyətə birgə çıxarıq, toyumda kömək edərsən. Müharibənin gedişində sanki ürəyinə dammışdı şəhid olacağı. Telefonunun kodunu, nişanlısı ilə şəkillərinin yerini dedi mənə və onu da dedi ki, "yaxşı ki, hələ toyum olmayıb". Bu sözləri müharibədə bir ayağını itirən qazi Nurlan Məmmədov, dostu Turanın dəfni zamanı onun son günlərindən danışarkən demişdi…

Qeyd edək ki, Turan Məmmədli Vətən müharibəsində Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. O, Xocavənd ətrafında keçirilən hərbi əməliyyatda şəhid olub. Zəfər günündən 20 gün sonra nəşi torpağa tapşırılıb. Düşmənin çox sayda canlı qüvvəsini məhv etdiyinə görə "Vətən Uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. …Bu günlərdə Turanın arzuladığı toy baş tutub, amma özünün yox, qardaşının. Ağstafanın Göycəli kəndindən olan Vətən müharibəsi şəhidi Turan Məmmədlinin qardaşı Gəray Məmmədli ailə həyatı qurub. Bu münasibətlə keçirilən toy mərasimində rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, ağsaqqallar, şəhid valideynləri və qazilər iştirak edib. Əvvəlcə Vətən uğrunda canını fəda edən şəhidlərmizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himnimiz səsləndirilib. Qonaqlar yeni ailə həyatı quran Gəray Məmmədli və onun xanımına ən xoş arzularını çatdırıb, ölkəmizdə şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçılarına göstərilən yüksək dövlət qayğısından söz açıblar. Şəhidimizin valideynləri Raqif ata və Ulduzə ana ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına görə, o cümlədən şanlı Qələbəmiz naminə şücaət göstərən Vətən oğullarına və onların ailə üzvlərinə hərtərəfli qayğı göstərən Prezident, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

***Hamlet Qasımov,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

## 2023-cü il Heydər Əliyev ilidir

# "Heydər Əliyevin islam dininə verdiyi dəyər" mövzusunda tədbir keçirildi

Bu günlər Heydər Əliyev Mərkəzində 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar "Heydər Əliyevin islam dininə verdiyi dəyər" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə Ağstafa RİH başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı İsa Məmmədov, Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, Ağstafa rayonu üzrə Təhsil Sektorunun aparıcı məsləhətçisi Əli Əliyev, Ağstafa şəhər İmam Əli adına "Cümə" məscidinin imamı Şahin İsmayılzadə, Yaradullu kənd ümumi orta məktəbinin tarix müəllimi Şəfəq Cəlilova, Qaçaq Kərəm kənd tam orta məktəbinin tarix müəllimi Sevinc Hacıyeva çıxış etmişdirlər. Çıxış edənlər Azərbaycanın son onilliklər ərzində bir çox sahələrdə qazandığı uğurlar heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə birbaşa bağlı olduğunu, Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda hər bir sahədə olduğu kimi, dini sahədə də problemlərin aradan qaldırıldığını, dövlət-din münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu qeyd etmişlər.

Çıxış edən natiqlər qeyd ediblər ki, belə mürəkkəb və ziddiyyətli şəraitdə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin yüksək dövlətçilik təcrübəsi nəticəsində bu sahədə dönüş yaranmış, dövlətin strateji xətti müəyyən olunmuşdur. Ulu Öndərin dərin biliyi, yüksək idarəçilik təcrübəsi, uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərində yaranmış uçurum aradan qaldırılmışdır.

# İbtidai sinif şagirdlərinin sevimli müəllimi



**_Ağstafa şəhər 2 saylı tam orta məktəbi rayonun ən nümunəvi təhsil müəssisələrindən biridir. 11 ildən çoxdur ki, bu tədris müəssisəsinin fəaliyyətinə Vəfa Tağıyeva rəhbərlik edir. Ötən illərdə həmin məktəbdə bir çox uğurlu nəticələr əldə olunmuş, məktəbi müvəffəqiyyətlə bitirən şagirdlərin əksəriyyəti öz təhsillərini respublikamızın ayrı-ayrı ali məktbələrində davam etdirmişlər. Əldə olunan nailiyyətlərin ən başlıca səbəbi məktəbin fəaliyyətinə rəhbərliyin düzgün təşkil olunması və bu məktəbdə peşəsini sevən, işinə məsuliyyətlə yanaşan müəllimlərin daha çox olmasıdır. Belə müəllimlərdən biri də ibtidai sinif müəllimi Lamiyə Məhəmməd qızı Babayevadır._**

Lamiyə Babayevə hələ uşaqlıq illərində şəhərimizdəki 1 saylı orta məktəbdə təhsil almış və həmin məktəbin 10-cu sinfini əla qiymətlərlə başa vurmuşdur. Gənc məzun orta məktəbi bitirdikdən sonra elə həmin il H. Zərdabi adına Gəncə şəhər Pedaqoji İnstitutuna daxil olmuş və 1998-ci ildə institutu bitirdikdən sonra şəhər 2 saylı orta məktəbində ibtidai sinif müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. Gənclik illərində filoloq olmaq arzusu ilə yaşayan Lamiyə Babayeva taleyin qismətindən yayına bilməmiş və ibtidai sinif müəllimi kimi şagirdlərin qarşısına çıxmışdır. O, artıq 25 ildir ki, bu şərəfli vəzifəni yerinə yetirir, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur.



Lamiyə Babayevanın atası Məhəmməd müəllim də vaxtilə onun işlədiyi 2 saylı orta məktəbdə fəaliyyət göstərmiş və rayonun ən tanınmış fizika müəllimlərindən biri olmuşdur.

Bu günlər Lamiyə Babayeva ilə iş yerində görüşdük və onunla xeyli söhbət etdik. Gənc müəllim öz işi barədə danışaraq ürək sözlərini belə ifadə etdi:

-Mən özümü dünyanın ən xoşbəxt insanlarından biri hesab edirəm. Çünki gələcəyimiz olan uşaqların təlim-tərbiyəsi ilə məşğul oluram. İşlədiyim dövrdə sevimli müəllimlərim olan ədəbiyyat müəllimi Arzu xanımı, riyaziyyat müəllimi Tanrıverdi müəllimi həmişə xatırlamışam. Mənim bu günə gəlib çıxmağımda onların çox böyük əməkləri olmuşdur.

Bu gün şagirdlərə dərs keçərkən çalışıram ki, onlar da orta məktəbi bitirdikdən sonra məni sevə-sevə xatırlasınlar. Bu arzuya nail olmaq üçün hər gün əlimdən gələni edirəm. Dərs dediyim şagirdlər arasında bacarıqlı, qabiliyyətli uşaqlar çoxdur. Şagirdlərimdən Ülkər Həsənli ADA Universitetini bitirmiş, Səbikə Nəbiyeva Bakı Dövlət Universitetinin tələbəsidir. Mənim yetirmələrimdən olan Nəzrin Həsənova isə Azərbaycan Tibb Universitetində təhsil alır. Mən onlarla həmişə fəxr etmişəm. Əminəm ki, onları danışdıran olsa, digər müəllimləri kimi mənim də haqqımda xoş sözlər deyərlər. Mən çalışacağam ki, əmək fəaliyyətimi bundan sonra da bu qaydada davam etdirim, gələcəyimiz olan uşaqlara elmin sirlərini dərindən öyrədim.

***İbrahim Əliyev***

# Abış Mustafayev küçəsində abadlıq işləri aparılır



Şəhərimizdəki Mərkəzi Bazarın sağ tərəfindən bazarın arxa tərəfində gedən Abış Mustafayev adına küçədə uzun müddət idi ki, narahatlıq hökm sürürdü. Bu küçədə maşınların hərəkətində və eləcə də əhalinin gediş-gəlişində tez-tez problemlər yaranırdı ki, bu da şəhər sakinlərinin və sürücülərin haqlı narazılığına səbəb olurdu.

Bir neçə gündür ki, qeyd edilən küçədə yenidənqurna işlərinə başlanılmış və köhnə səkilər sökülmüşdür. Hazırda küçədə işlər sürətlə davam etdirilir. Abadlıq işlərinin yaxın günlərdə tam yekunlaşdırılması nəzərdə tutulur. Görülən abadlıq işləri başa çatdıqdan sonra həmin küçədən əhalinin bazara piyada gediş-gəlişi tam qaydaya düşəcəkdir. Bütün bunlar qaydaya düşdükdən sonra bazarın arxa küçəsində də yenidənqurma işlərinin aparılması nəzərdə tutulur.

## ELAN

## 2023-2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair Ağstafa Rayon Polis Şöbəsində sənədlərin qəbulu elanı

DİN-in Polis Akademyasında təhsil almaq arzusu olan, Azərbaycan dilini sərbəst bilən, çağırışçı kimi qeydiyyatda və hərbi xidmətə yararlı olan, tam orta təhsilli, boyu azı 165 sm olan, 16 yaşdan 18 yaşadək (2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşlarının müvafiq forma üzrə ərizələrinin Ağstafa Rayon Polis Şöbəsində qəbulu 2023-cü ilin yanvar ayının 23-dən mart ayının 4-dək həyata keçirilir.

Namizədlər aşağıdakı sənədləri ərazi polis orqanlarına şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə (əsli və surəti)
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat)
- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti)
- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə

9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda)

DİN-in Polis Akademiyasına qəbulla bağlı əlavə məlumat almaq üçün Ağstafa RPŞ-nin Kadrlar Qrupuna müraciət edə bilərsiniz.

**TEL:** 055-218-22-72
099-318-22-72

# TÜRKİYƏM

Salam !
Adı bizə yasaq olan
Sovetləşmiş pasportumda.
Bir "Türk" sözü yazılmayan,
Tarixlərdən mənə əyan,
Gündoğandan günbatana
Zaman-zaman şölə yayan
Ağrı dağın ətəyində
Dağlar kimi həm qocaman
Dağlar kimi həm də cavan
Canım olsun sənə qurban,
Türkiyəm!

Qara dəniz yaxasında
Nuh dövründən lövbər salan,
Bu gününə, sabahına
Xoş müjdələr soraqlayan,
Bu gün bahar yelləriylə
Saçlarımı daraqlayan,
Məni öpən, məni qucan
Qurban olsun sənə bu can,
Türkiyəm!
Salam sənə, bizim əlvan
Qoca Qafqaz dağlarından!
Xoşbəxt gəlin otağıtək
Quba, Xaçmaz bağlarından,
Ərənlərtək dəliqanlı
"Tər-tər","Şəmkir" çaylarından.
Bəndlər yıxan axarından
Kürlə -Araz oylağından,
Qarabağa həsrət baxan
Kəpəz, Qoşqar dağlarından,
Gülərüzlü, qonaqpərvər
Gəncəbasar diyarından ,
Salam bahar ölkəsinə
Azərbaycan baharından!
Suyun şərbəst, daşın mərcan,
Canım olsun sənə qurban-
Türkiyəm!

Antalyada bir dost evi,
Burda açdım pəncərəni,
Neçə-neçə minarədən-
Azan səsi möcüzəmi,
Çıraqların ayparamı?
Gecə vaxtı qucaq açım
Süd işıqlı səhərəmi?
Kəhkəşanın bir parçası
Bodruma, Kəmərəmi?
Sənin mənə bəxş etdiyin
Təkcə gözəl mənzərimi?
Yunus İmrə günəşiylə
Ürəyimə işıq saçan,
Canım olsun sənə qurban,
Türkiyəm !

Doğma balan kimi gəldim
Sənin ana qucağına,
Alqış qədim tarixinə -
O çağına , bu çağına.
Vurulmuşam hər daşına ,
Hər guşənə, bucağına,
Baş əyirəm səndə olan
Yenilməzlik vüqarına,
Baş əyirəm Osman Qazi,
Fateh Mehmed torpağına.
Bütün bəşər sənə valeh,
Bütün cahan sənə heyran,
Canım olsun sənə qurban-
Türkiyəm!

Səndən dayaq istəyirəm,
Elə bilmə, dayaqsızam,
Səndən qanad istəyirəm,
Elə bilmə, qanadsızam.
Dayağıma, qanadıma
Yeni dayaq, qanad qoşan,
Qayələri varlığımda
Ərənlərtək yatmayaraq,
Avropanın sinəsində
Hər gün yeni bir dağ aşan,
Mərdlik üçün meydan açan-
Canım olsun sənə qurban-
Türkiyəm!

Avropada təklənsən də,
Neçə ildi bəklənsən də,
Türkə düşmən olanlara,
Alçaq, qorxaq nadanlara
Öz sözünü deyə bildin,
Öz gücünü deyə bildin.
Ey mərdlərə cürət verən,
Qüdrət verən, güclü, qəvi
Nağılları əfsanəvi
Ülvi ölkə, yüksək məkan-
Canım olsun sənə qurban-
Türkiyəm!

Ağacların tumurcuqlu,
Gözlərimdi tumurcuqlar,
Bu gün sənə mənim könlüm
Milyon-milyon gözlə baxar-
Varlığımda Mehmed Akif
Türk himnitək coşar, çağlar.
Ürəyimdə qucaqlaşan
Türksoy, Xəlil yanğısı var,
Səninkidir, doğma diyar,
Nazim Hikmətlərə qəmxar
Məmməd Arazla Bəxtiyar!
Itirdinsə onları sən,
Milyon-milyon qəlbdə axtar
Bu dünyada sanma təkik
Yeddi dövlət, bir millətik!
Nə böyük ad, böyük məkan-
Canım olsun sənə qurban-
Türkiyəm!

Ozanların qopuzunda
Tellər- günəş şüasıdır.
Qılınclaşan qopuz bizə
Koroğlunun mirasıdır.
Ululaşan Atatürküm
Böyük Türkün atasıdır.
Dədə Heydər əməliylə
Tariximdə qalasıdır.
Bu dostluğa kəm baxsa kim
Xar olası, sınasıdır.
Ankaradan Altayacan
Türk oğlunun qalasıdır.
Yan, əbədi məşəl kimi
Ucal aya, ulduzacan
Canım olsun sənə qurban-
Səni sevir Azərbaycan,
Türkiyəm!

***Aydın İbrahimoğlu***
***Ağstafa Yazıçılar evinin rəhbəri***

# Yaşayış məhəllələri abadlaşır



Yaşayış məhəllələrinin abadlaşdırılması rayon rəhbərliyinin həmişə diqqət mərkəzində duran mühüm məsələlərdən biri olmuş və bu ənənə bu gün də davam etməkdədir. Son illər şəhərimizdəki çoxmənzilli yaşayış binalarının yerləşdiyi məhəllələrin abadlaşdırılması istiqamətində xeyli iş görülmüşdür. Bu istiqamətdə aparılan işlər şəhər sakinləri tərəfindən həmişə rəğbətlə qarşılanmış və onlar görülən işləri şəhər sakinlərinə göstərilən diqqət və qayğı kimi qiymətləndirmiş, bütün bunlara görə rayon rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

Rayon İcra Hakimiyyətinin Tikinti və Memarlıq Şöbəsindən əməkdaşımıza bildirdilər ki, yaxın günlərdə Heydər parkının yaxınlığında yerləşən 33 mənzilli yaşayış binasının həyətinin abadlaşdırılması işinə başlanılacaqdır. Bunun üçün hazırlıq işləri tam yekunlaşdırılmış və məhəllədə təmizlik işlərinə başlanılmışdır. Bu işlər tam yekunlaşdıqdan sonra 33 mənzilli binanın məhəlləsi rayonda aparılan üçüncü abad həyat olacaqdır. Bu kimi tədbirlərin şəhərimizdəki digər çoxmənzilli yaşayış binalarının həyətlərində də aparılması nəzərdə tutulur.

# Bu dünyamız

İkİ dünya, iki məkan,
Biri haqdı, biri yalan,
Mərhəməti azalmayan,
Möcüzədi bu dünyamız.

Həm yaşadan, həm öldürən,
Gah ağladan, gah güldürən,
Sinəsindən od püskürən,
Möcüzədi bu dünyamız.

İnsanların arzusu çox,
Kimisi ac, kimisi tox,
Bİr əbədi gülüşü yox,
Möcüzədi bu dünyamız.

Hər gündüzü hər gecəsi,
Müjdə verir azan səsi,
Ay ulduzun görünməsi,
Möcüzədi bu dünyamız.

Bərəkətdi qar yağışı,
İsti yayı soyuq qışı,
Torpağının hər qarışı,
Möcüzədi bu dünyamız.

Vay o günə şur çalına,
Yaradılışdan can alına,
Əməllər yada salına,
Möcüzədi bu dünyamız.

Acı şirin, xeyri şəri,
Yola salır gələnləri,
Saxlamadı Peyğımbəri,
Möcüzədi bu dünyamız.

İblis felinə inanıb,
Adəm oğlu silahlanıb,
Hərislikdə ad qazanıb,
Möcüzədi bu dünyamız.

Salam olsun Peyğəmbərə,
Lə ilahə deyənlərə,
Hacı olub Gələnlərə,
Möcüzədi bu dünyamız.

Nazil olub dörd kitabı,
Hər suala var cavabı,
Zikrlə olur cavabı,
Möcüzədii bu dünyamız.

Tövbə etsən alqışlanar,
Günahların bağışlanar,
Cəhənnəmi, cənnəti var,
Möcüzədi bu dünyamız.

Zəbur, Tövrat, İncil, Quran,
Nurla zülməti boyayan,
İnsanlığa dayaq duran,
Möcüzədii bu dünyamız.

İslam dini bir nur oldu,
Haqqa tərəf gedən oldu,
İki mələk sağdı, soldu,
Möcüzədi bu dünyamız.

Məcid yazdın həqiqəti,
Möminlər versin qiyməti,
Dostlarımın sədaqəti,
Möcüzədi bu dünyamız.

***Məcid Əli oğlu***

# Quldurlar yaxalandı



Ağstafa şəhərinin mərkəzi küçələrindən biri olan Nəriman Nərimanov küçəsinin başlanğıcında yerləşən Sahibə Ələkbərovaya məxsus 9 saylı mənzildə baş verən qurldurluq hadisəsi həmin küçənin sakinlərində, eləcə də şəhər ictimaiyyətində ciddi narahatlıq yaratmışdır.

Oğurluq hadisəsi keçən il dekabr ayının 18-də olmuş, iki nəfər maskalı şəxs gecə saat 1-2 radələrində hasardan aşaraq evin qapısını qırmış və mənzilə daxil olmuşlar. Bu vaxt evdə tək yaşayan Sahibə Ələkbərova yuxudan oyanmış və onlara müqavimət göstərmişdir. Onun bütün cəhdlərinə baxmayaraq quldurlar S. Ələkbərovanın əl-qolunu arxadan bağlamış, ondan pul və qiymətli əşyalar tələb etmişlər. Ev sahibindən müsbət cavab almayan quldurlar mənzildə axtarış etmiş, pul, qızıl əşyalar ələ keçirdikdən sonra qaçmışlar. Məlumat Rayon Polis Şöbəsinə daxil olduqdan sonra operativ əməliyyat tədbirlərinə başlanılmışdır. Peşəkarlıqla aparılan əməliyyat tədbirləri nəticəsində məlum olmuşdur ki, evə daxil olan quldurlar Ağstafa rayon sakinləri Pərviz Yolçuyev və Umud Zeynalovdur.

Bu günlər quldurlar polis əməkdaşları tərəfindən yaxalanmış və faktla bağlı Cinayət Məcəlləsinin 181-ci maddəsi ilə cinayət işi başlanılmışdır. Yəqin ki, quldurlar öz layiqli cəzalarını alacaqlar.

## Etibarsız sayılır

Tanrıverdiyev Hidayət Hümbət oluna məxsus Yeni Azərbaycan Partiyası vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Dağkəsəmən kənd sakini Aliskəndərov Fərid Valeh oluna məxsus 000236 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, İ.Sofuyev, M.Zeynalov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov, A.Əlixanov

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000